

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 13 (22.924)

*21 yanvar 2018-ci il, bazar*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də – Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad ediblər.

Qanlı Yanvar hadisələrindən 28 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş Sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməyib, əksinə, haqq səsini daha ucadan bəyan edib. Düz 28 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucalıblar.

Dövlətimizin başçısı “Əbədi məşəl” abidəsinin önünə əklil qoyub.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səslənib.

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad ediblər.



## Naxçıvanda 20 Yanvar faciəsinin 28-ci ildönümü qeyd edilib

Naxçıvan Muxtar Respublikasında 20 Yanvar faciəsinin 28-ci ildönümü qeyd olunmuş, şəhər və rayonlardakı şəhidlər xiyabanlarını minlərlə insan ziyarət etmişdir.

Yanvarın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərindəki Şəhidlər Xiyabanına gəlmiş, “Ana abidəsi”nin önünə əklil qoymuş, şəhidlərin xatirəsinə ehtiramını bildirmişdir.





Sonra Dövlət Himni səslənmişdir.

Ali Məclisin Sədri şəhidlərin məzarlarını və 1918-1920-ci illərdə erməni daşnakları ilə mübarizədə Naxçıvanın köməyinə gələn qardaş Türk ordusunun şəhid olmuş əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək tər güllər qoymuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, nazirlik, komitə və digər mərkəzi təşkilatların, məhkəmə, hüquq-mühafizə orqanlarının, hərbi hissələrin, elm və təhsil müəssisələrinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, ictimai təşkilatların və yaradıcılıq birliklərinin, kütləvi informasiya vasitələrinin, mədəniyyət, səhiyyə və sağlamlıq müəssisələrinin kollektivləri, şəhər sakinləri şəhidlərin əziz xatirəsini ehtiramla yad etmişlər.



20 Yanvar faciəsi müstəqillik uğrunda mübarizə tariximizin ən şanlı səhifəsi, qürur və şərəf tariximizdir. Vətən naminə, müstəqillik naminə şəhid olanlar insan mənəviyyatının ən yüksək zirvəsinə ucalırlar. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***“20 Yanvar 1990-cı il Azərbaycanın tarixində ən faciəli gündür. Ancaq eyni zamanda o gecə, o gün Azərbaycan xalqı öz qəhrəmanlığını, rəşadətini və şəhidlik zirvəsinə qalxa bilməsini bütün dünyaya nümayiş etdirdi”.***

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusu tərəfindən Bakıda dinc əhaliyə qarşı dəhşətli qırğın törədildi. Faciə zamanı 147 Azərbaycan vətəndaşı şəhid olmuş, 744 nəfər yaralanmış və xəsarət almışdır. Xalqın müstəqillik arzusunu boğmaq məqsədilə törədilən bu cinayətə ilk dəfə ümummilli liderimiz Heydər Əliyev öz etirazını bildirmiş, Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək bəyanatla çıxış etmiş, faciəni törədənləri kəskin ittiham edərək demişdir: ***“Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan Daimi Nümayəndəliyində böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanda baş vermiş hadisələri hüquqa, demokratiyaya, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm”.***

20 Yanvar faciəsinin törədilməsində məqsəd bir tərəfdən xalqımızın gözünü qorxudaraq müstəqillik əzmini qırmaq idisə, digər tərəfdən də torpaqlarımızın ermənilər tərəfindən işğalına şərait yaratmaq idi. Ermənilərin faciədən bir neçə gün əvvəl Naxçıvan Muxtar Respublikasına hücumları bunu bir daha təsdiq edir. 1990-cı il yanvarın 18-də Kərki kəndi SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə ermənilər tərəfindən işğal olundu. Muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə altında qaldığından, beynəlxalq Qars müqaviləsinin şərtləri kobud surətdə pozulduğundan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Soveti 1990-cı il yanvarın 19-da “Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında” tarixi qərar qəbul etdi. Bu qərara əsasən Naxçıvan MSSR Sovet imperiyasının tərkibindən çıxdı. Yanvarın 20-də Bakıda qanlı hadisələrin törədilməsindən bir neçə saat əvvəl isə ermənilər Sədərəyə və muxtar respublikanın digər sərhəd kəndlərinə silahlı hücum etdilər.

1990-1993-cü illərdə ulu öndərin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası müdafiə olundu, bu qədim diyarın işğalının qarşısı alındı. Həmin dövrdə ümummilli liderimiz Naxçıvan Muxtar Respublikasında milli dövlətçiliyimizin və müstəqilliyimizin əsaslarını işləyib hazırladı. Uğrunda şəhidlər verdiyimiz üçrəngli bayrağımız ilk dəfə Naxçıvanda qaldırıldı, milli birliyimizin və həmrəyliyimizin əsası qoyuldu. Həmçinin ulu öndərin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisində 20 Yanvar faciəsinə ilk dəfə siyasi qiymət verildi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 21 noyabr tarixli sessiyasında “1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında” Qərar, 1992-ci il yanvarın 13-də isə “1990-cı ilin yanvar ayında Bakı faciəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin bəyanatı” qəbul olundu. Həmin dövrdə ölkəmizə “rəhbərlik” edənlər isə xalqımıza qarşı törədilmiş qanlı cinayəti hər vəchlə gizlətməyə, təqsirkarların adlarının elan olunmasının, onların cəzalandırılmasının qarşısını almağa çalışırdılar.

Lakin ümummilli liderimiz Heydər Əliyev xalqın təkidli tələbi ilə ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra faciəyə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. 1994-cü ilin fevral ayında keçirilən Milli Məclisin xüsusi sessiyasında 1990-cı il yanvarın 20-də günahsız insanların qəddarcasına qətlə yetirilməsi hərbi təcavüz və cinayət kimi qiymətləndirildi, bu barədə qərar qəbul olundu.

*Ardı 2-ci səhifədə*



Azərbaycanın müstəqilliyi uğrunda canlarını qurban verənlərin xatirəsi bu gün də yüksək tutulur. ***"Ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirən Azərbaycan övladları 1990-cı ilin yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar"***, – deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, o cümlədən onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsi daim diqqət mərkəzində saxlayır, bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir.

Müstəqil dövlətçilik ənənələrimizi bərpa etmək uğrunda aparılan mübarizənin mühüm mərhələsini təşkil edən 20 Yanvar faciəsi azadlığımızın rəmzi abidəsinə çevrilmişdir. Azərbaycan gəncliyi xoşbəxtdir ki, güclü ordusu və qətiyyətli LİDERi olan ölkədə yaşayır. Bu isə xalqımızın bir daha faciələrlə, soyqırımlarla sınağa çəkilməyəcəyinə tam təminat verir. İllər keçsə də, şəhidlərimizin qanının hədər axmadığını, o qanlar bahasına bugünkü azadlığımızın, müstəqilliyimizin, dövlət quruculuğumuzun, tərəqqimizin bünövrəsinin qoyulduğunu gələcək nəsillər böyük ehtiramla xatırlayacaqdır. Çünki ümummilli liderimiz Heydər Əliyevin də dediyi kimi: ***"Hər bir şəhid millətin mənəvi ucalığıdır. Şəhidlik milləti yüksəldən, milləti millət edən amillərdən biridir".***

Həmin gün saat $12^{00}$-də şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# 20 Yanvar faciəsinin 28-ci ildönümündə muxtar respublikamızın bütün rayonlarında şəhidlərin əziz xatirəsi ehtiramla anılıb

## *Şərur rayonu*

***Zaman tarixin bizdən uzaqlaşdırdığı bir çox hadisələri xatirələrdən silir. Lakin keçdiyimiz yollarda elə anlar olur ki, onlar bütöv bir xalqın taleyi üçün böyük əhəmiyyət kəsb etdiyindən tarix onları uzaqlaşdıra bilmir. Zaman etibarilə bu hadisələrdən nə qədər çox uzaqlaşırıqsa, onların təkcə bu günümüzə yox, sabahımıza da təsirini daha aydın başa düşür və dərk edirik. 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə Bakıda, ondan bir neçə saat əvvəl muxtar respublikamızın sərhəd kəndləri olan Kərkidə və Sədərəkdə baş verən qanlı hadisələr də heç zaman yaddaşlardan silinməyəcək, gənc nəsillərə örnək kimi xatırlanacaqdır.***



Həmin hadisələrdən 28 il keçir. Lakin Azərbaycan xalqı insanlığa sığmayan bu ağır cinayətləri tarix boyu unutmayacaq, kədərli, eyni zamanda məğrurluqla, qəhrəmanlıqla dolu olan Qanlı Yanvar kövrək xatirələrdə yaşayacaqdır.

Vətən məhəbbəti həmişə müqəddəs sayılmış, hər şeydən əziz tutulmuşdur. Vətənə məhəbbətin kökü isə torpaqdan başlanır. Bu yüksək və ülvi duyğu, güclü, təmiz, pak hiss həmin gün müstəqilliyə, azadlığa gedən yolumuza hərbin gücü ilə sipər çəkmək istəyənlərə qarşı vətənpərvər oğullarımızın başladıqları mübarizənin ana xəttini təşkil etdi.

Deyirlər, ulduzlar ömrünü başa vurarkən öz axını ilə bir işıq, nur xətti bəxş edir səmaya. Həyatda da elə insanlar var ki, onların ömrü bir ulduzun sönməsinə bənzəyir. Ancaq fərq burasındadır ki, onlar öləndən sonra da özlərinə məxsus həyat dəst-xətti ilə qəlblərdə əbədi məhəbbət işığı yandırırlar. Məhərrəm Seyidov, Etibar Əhmədov, Mirhəşim Seyidov, Məmməd Məmmədov, ümumilikdə, azadlığımız, torpaqlarımızın müdafiəsi zamanı adlarını müqəddəs şəhidlik zirvəsinə həkk etmiş 75 şərurlu da ürəklərdə əbədi məhəbbət məşəli yandırmış, hər evdə, hər ailədə müqəddəs məbədə çevrilmişlər. Şərur şəhidlərindən 3-ü – Məhərrəm Seyidov, Səyavuş Həsənov və Kərim Kərimov "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşlər.

Ümumiyyətlə, 1990-cı ilin 19-20 yanvarında baş verənləri yada salanda bir daha görürük ki, özünün əsl qüdrətini dərk etdi xalqımız. Həmin gün Şərurda ilk şəhid məzarları qazıldı. Bu məzarlarda torpaqlarımızın müdafiəsi zamanı qəhrəmancasına həlak olmuş və şəhidlik zirvəsinə yüksəlmiş şərurlular dəfn olundular.

Bu il yanvar ayının əvvəllərindən başlayaraq rayonun idarə və təşkilatlarında anım tədbirləri keçirilib. Tədbirlərdə Qanlı Yanvara gedən yola bir daha nəzər salınıb, bu hadisələrin təşkilatçıları və törənmə səbəbləri barədə danışılıb, ədəbi kompozisiyalar nümayiş etdirilib, məktəblilər xalqımızın qəhrəmanlıq tarixini əks etdirən şeirləri bədii qiraət ediblər. Yanvarın 19-da ümumtəhsil məktəblərində bir dərs saatı 20 Yanvar hadisələrinə həsr olunub.

Yanvarın 20-də isə rayon ictimaiyyəti Qanlı Yanvar hadisələrində həlak olanların əziz xatirəsini yad etmək üçün Şərur şəhərindəki Şəhidlər xiyabanına gəlmişdi. Müqəddəs ziyarətgahda şəhidlərin ruhuna dualar oxundu, onların xatirəsinə ucaldılmış abidə önünə tər qərənfillər qoyuldu. Sonra xiyabandakı bütün şəhid məzarları ziyarət edildi və onların üzərinə qırmızı qərənfillər düzüldü.

Həmin gün Azərbaycanın Milli qəhrəmanları Məhərrəm Seyidovun Şərur şəhərindəki, Səyavuş Həsənovun Yengicə kəndindəki büstləri, Kərim Kərimovun Qarahəsənli kəndindəki məzarı da ziyarət edildi, məzarların üzərinə gül dəstələri qoyuldu.

Ziyarətə gələnlərin hamısının fikri birmənalı idi: Bura bizim and yerimizdir, şəhidlər ölkəmizin ən ağır günlərində hünər və cəsarət zirvəsini fəth ediblər. Onlar unudulmazdırlar, özləri də, əməlləri də qəlbimizdə yaşayır və yaşayacaqdır.

Yanvarın 20-də saat $12^{00}$-də rayon ərazisində sükut dəqiqəsi oldu. Avtomobillər, lokomotivlər hərəkətsiz dayandı və səs siqnalları verildi.

## *Babək rayonu*



***Xalqımızın qan yaddaşına milli qürur tarixi kimi yazılan 20 Yanvar Babək rayon sakinlərinin də qəlbində daim yaşayır. Bu rayonun 45 qəhrəman övladı müstəqilliyimiz, suverenliyimiz, torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalıb. Onların əziz xatirəsi dövlətimiz tərəfindən hər zaman uca tutulur, şəhid ailələrinə hərtərəfli dövlət qayğısı göstərilir. Çünki onlar canlarını bizim bugünkü müstəqilliyimiz, azadlığımız yolunda qurban veriblər, ərazi bütövlüyümüzü hər şeydən üstün tutublar.***

Yanvarın 20-də rayon ictimaiyyətinin nümayəndələri Babək qəsəbəsinin mərkəzində şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksinin qarşısına gələrək bu Vətən övladlarının ölməz xatirəsinə ehtiramlarını bildiriblər, abidə önünə gülçiçək düzüblər.

Mərasim iştirakçılarından rayon sakini Razi Adıgözəlov bizimlə söhbət zamanı bildirdi ki, 20 Yanvar xalqımızın öz azadlığı, müstəqilliyi uğrunda mübarizəsinin başlanğıcı idi. Bu azadlığı yerindəcə boğmaq istəyən Sovet imperiyası öz istəyinə nail ola bilmədi. Doğrudur, bu yolda mərd, Vətənini sevən övladlarımız şəhid olsalar da, xalqımızın özünəinamı, azadlıq sevgisi hər şeyə qalib gəldi. Nəticədə, ötən əsrin sonlarında Azərbaycan ikinci dəfə öz müstəqilliyinə qovuşdu. Beləliklə, 20 Yanvar Azərbaycan xalqının özünəinam, milli birlik və sınaq günü oldu. İndi bu faciənin üstündən 28 il ötsə də, müstəqilliyi qanları bahasına qazanmış Vətənin qəhrəman övladlarının xatirəsi hər kəsin qəlbində böyük bir iz buraxıb. Buna görə də nə qədər ki xalqımız var olacaq, 20 Yanvar şəhidləri də daim yad olunacaq.

Digər rayon sakini Anar Fərzəliyev dedi:

– Qısa və şərəfli ömür yaşamış şəhidlərimiz bizim üçün hər şeydən əzizdir. 20 Yanvar faciəsi xalqımıza qarşı yönəldilmiş bir terror aktı idi. Ancaq bu faciə nə qədər ağır olsa da, azadlıqsevər xalqımızın mübarizliyini bir daha göstərdi. Ümumiyyətlə, son iki əsrdə xalqımız belə faciələrlə çox üzüzə qalıb. İndiyədək torpaqlarımızın bütövlüyü uğrunda xeyli şəhidlər vermişik. Ancaq heç vaxt müstəqilliyimizdən, azadlığımızdan əl çəkməmişik. Xalqımızın tarix boyu öz azadlığı uğrunda apardığı mübarizənin nəticəsidir ki, Şərqdə ilk dəfə müstəqil respublika Azərbaycanda qurulub. 20 Yanvar faciəsi isə müstəqilliyimizin bərpası yolunda qarşılaşdığımız milli qəhrəmanlıq salnaməsi idi. Qurbanlar bahasına olsa da, xalqımız öz azadlığı uğrunda mübarizəsini əzmlə davam etdirdi. Bu azadlıq mücadiləsində babəklilər də fəal iştirak edib, şəhidlər verib. Onları həmişə böyük qürur hissi ilə xatırlayırıq.

## *Ordubad rayonu*



***Milli müstəqilliyimiz və ölkəmizin ərazi bütövlüyü uğrunda 42 şəhid verən Ordubad rayonunda da yanvarın 20-də faciənin ildönümü ilə bağlı anım mərasimi keçirilib. Rayon ictimaiyyətinin nümayəndələri səhər saatlarından Ordubad şəhərindəki Şəhidlər xiyabanına gələrək şəhid məzarları üzərinə qərənfillər düzüb, Vətən övladlarının ruhuna dualar oxuyublar.***

Mərasimdə rayon sakinləri ilə söhbətimiz zamanı bildirdilər ki, 20 Yanvar hadisələri xalqımızın milli azadlıq arzusuna qarşı həyata keçirilən ən böyük təcavüz faktı, eyni zamanda bir qəhrəmanlıq səhifəsidir. Bu, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet imperiyasının törətdiyi ən böyük cinayət kimi tarix səhifələrinə yazıldı.

SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı törətdiyi bu qanlı cinayət xalq kütlələrini sıx birləşdirdi, onların mübarizliyini daha da artırdı. 20 Yanvar faciəsi yeni tariximizdə həm də bir qürur günü kimi iz qoydu. Bu hadisə günahsız insanların amansızcasına qətlə yetirilməsi ilə nəticələnsə də, öz azadlığına, müstəqilliyinə can atan Azərbaycan xalqının mübarizliyini, məğrurluğunu bir daha bütün dünyaya, o cümlədən ovaxtkı imperiya rəhbərliyinə aydın şəkildə nümayiş etdirdi.

Azərbaycan xalqına qarşı törədilmiş cinayət, tökülmüş nahaq qanlar, insanların vəhşicəsinə qətlə yetirilməsi xalqın müstəqillik uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin gecə Azərbaycan xalqı özünün yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, azadlıq uğrunda mübarizə əzmini bütün dünyaya bəyan etdi. Məhz bu əzmin, iradənin sayəsində xalqımız müqəddəs arzusuna çatdı, milli azadlığına qovuşdu. Azərbaycan müstəqil dövlət kimi dünya birliyinə daxil oldu. 28 ildir ki, həmin gün ölkəmizin hər yerində qeyd edilir, şəhidlərin xatirəsi böyük ehtiramla anılır.

*Ardı 3-cü səhifədə*

## Culfa rayonu



20 Yanvar faciəsi milli ideallar uğrunda mübarizə aparan soydaşlarımızın hər cür məhrumiyyətlərə sinə gərmək əzminin bariz ifadəsi, xalqımızın tarixinə yazılan şanlı bir səhifədir. Elə bir səhifə ki üstündən neçə illər keçsə belə, bizə milli ideallar uğrunda mübarizənin haqq səsi olduğunu xatırladır.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda Sovet ordusu tərəfindən dinc əhaliyə qarşı kütləvi qırğın törədildi. Bu qanlı hadisənin törədilməsində əsas məqsədlərdən biri öz haqlı tələblərini irəli sürən, bu tələblərə demokratik yollarla nail olmaq istəyən, istiqlaliyyət, azadlıq, suverenlik istəyi ilə yaşayan xalqın iradəsini qırmaq, insanların müstəqillik arzularını tankların tırtılları altında əzmək idi. Sovet imperiyası günahsız insanların qanını axıtsa da, xalqımıza qarşı misligörünməmiş qəddarlıq etsə də, istəyinə nail ola, milli qürurumuzu qıra bilmədi.

Həmin qanlı gecədən 28 il keçsə də, bu tarixi gündə şəhidlik zirvəsinə ucalmış insanların qəhrəmanlığı həmişə böyük ehtiramla yad olunur. Dünən muxtar respublikamızın bütün bölgələrində olduğu kimi, Culfa rayonunda da 20 Yanvar faciəsinin ildönümü münasibətilə anım mərasimi keçirilib.

Mərasimdə Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə öz canlarından keçmiş 33 culfalı şəhidin xatirəsinə rayon mərkəzində ucaldılmış abidə kompleksi ziyarət edilib. Rayon ictimaiyyətinin nümayəndələri 20 Yanvar şəhidlərinin, Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən müxtəlif döyüşlərdə qəhrəmancasına həlak olmuş culfalıların ruhuna dualar oxuyub, abidə önünə güllər düzüblər.

Ziyarətə gələn rayon ictimaiyyətinin nümayəndələri ilə söhbət zamanı onlar bildirdilər ki, şəhidlərin qəhrəmanlığı, keçdikləri həyat yolu hər birimizə örnək olub, gənc nəslin vətənpərvər ruhda tərbiyə olunmasında böyük əhəmiyyət daşıyır. Xalqımızın tarixinə qəhrəmanlıq səhifəsi, yaddaşlarımıza qürur və şərəf günü kimi yazılmış həmin günü heç birimiz unutmuruq. Çünki bu tarix müstəqilliyimizin təməl günüdür. Ona görə də xalqımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin uyuduğu müqəddəs ünvanlar bu gün hər bir azərbaycanlının ziyarət yeridir. Vətənini, torpağını qorumağı özünün vətəndaşlıq borcuna çevirən hər bir azərbaycanlı şəhidlik zirvəsinə yüksələnlərin xatirəsini həmişə uca tutur, onların ruhuna daim ehtiram göstərir.

## Kəngərli rayonu

***20 Yanvar faciəsinin 28-ci ildönümü Kəngərli rayonunda da qeyd olunub. Həmin gün rayon ictimaiyyətinin nümayəndələri Azərbaycanın ərazi bütövlüyü, xalqımızın azadlığı naminə canlarından keçmiş qəhrəman övladlarının xatirəsini yad etmək üçün Qıvraq qəsəbəsində şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə tər güllər düzərək şəhidlərin xatirəsini dərin ehtiramla yad ediblər.***



Rayonun Şahtaxtı kənd sakini Fikrət Babayevlə abidəni ziyarətdən sonra həmsöhbət olduq. Bildirdi ki, 20 Yanvar tariximizə qanla yazılmış səhifə olsa da, bu həm də milli qürur günümüzdür. Çünki həmin gün vətənpərvər övladlarımız xalqımızın azadlığı, müstəqilliyi uğrunda şəhid olublar. Azadlıq heç zaman verilmir, qazanılır. Xalqımızın qəhrəman oğul və qızlarının qanı bahasına Azərbaycan yenidən öz müstəqilliyini qazandı. 20 Yanvar isə bu şərəfli mübarizə yolunun əsasını təşkil edir. Bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür.

Digər rayon sakini, Qarabağlar kənd 2 nömrəli tam orta məktəbin müəllimi Miryaqub Seyidov isə dedi: – Azərbaycan xalqı zaman-zaman ağır faciələrlə üzləşib, haqsızlıqlarla qarşılaşıb. Xalqımızın başına gətirilən belə faciələrdən biri də 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə dinc əhaliyə qarşı törədilmiş dəhşətli qırğın hadisəsi olub. Həmin hadisələrin törədilməsində əsas məqsəd öz azadlığına qovuşmaq istəyən, erməni təcavüzkarlığına qarşı haqlı etirazını bildirib ədalət tələb edən Azərbaycan xalqının iradəsini qırmaq idi. Sovet imperiyası xalqımızı susdurmaq üçün Bakıya qaniçən hərbi dəstələrini göndərsə də, bu, xalqımızın öz arzusuna çatmağına mane ola bilmədi. Tarix sübut etdi ki, milli birlik, mübarizlik hər şeyə qadirdir. Bu baxımdan 20 Yanvar faciəsi Azərbaycan tarixinə qəhrəmanlıq günü kimi yazıldı. Bu qəhrəmanlıq tarixində Kəngərli rayonundan olan oğulların da payı var. Xalqımızın azadlıq mücadiləsində rayondan 36 nəfər şəhidlik zirvəsinə ucalıb. Onların xatirəsi daim əziz tutulur.

## Şahbuz rayonu



***Muxtar respublikamızın hər yerində olduğu kimi, Şahbuz rayonunda da 20 Yanvar faciəsinin 28-ci ildönümü qeyd edilib. Şahbuz şəhərindəki Şəhidlər abidə kompleksinə gələn rayon sakinləri Vətənimizin azadlığı, ərazi bütövlüyü uğrunda canlarından keçən igidlərin əziz xatirəsini dərin ehtiramla yad ediblər. Qeyd edək ki, bu yüksək amallar uğrunda Şahbuzun 19 vətənpərvər övladı şəhid olub. Rayon ictimaiyyətinin nümayəndələri kompleksin önünə gül dəstələri düzüb, şəhidlərin ruhuna dualar oxuyublar.***

Şahbuz ölkəmizin işğalçı dövlətlə sərhəd rayonlarından biridir. Bu gün qüdrətli ordumuz tərəfindən etibarlı şəkildə qorunan Şahbuzda həmin dövrdə də mənfur erməni daşnaklarına qarşı layiqli cavab verilib. Şahbuzun igid oğlanlarından Mehman Orucov, Müşfiq Həsənov Naxçıvanın sərhəd bölgəsi olan Sədərəyə hücumların qarşısının alınmasında qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalıblar. Rayonun Keçili kəndindən olan və o dövrdə Bakı şəhərində ali təhsil alan tələbə Teymur Alməmmədov isə 20 Yanvar gecəsinin şəhididir.

Tədbirdə iştirak edən Şahbuz rayon sakinləri şəhidlərlə qürur duyduqlarını, onların xatirəsini uca tutduqlarını bildirdilər. Aşağı Qışlaq kəndindən gəlmiş Əli Əhmədov düşüncələrini bizimlə bölüşərək dedi ki, 20 Yanvar faciəsi XX əsr Azərbaycan tarixində baş vermiş qanlı hadisələrin, soyqırımı aktlarının məntiqi davamı, "parçalayə hökm sür!" siyasətinin növbəti təzahürü idi. Qan yaddaşımıza böyük faciə, həm də qəhrəmanlıq kimi həkk olunan 20 Yanvar müstəqillik əzmimizi, milli kimliyimizi dünyaya tanıdan gün oldu. Bu tarix Azərbaycanın istiqlalı yolunda milli məfkurəmizdən güc alan qarşısıalınmaz azadlıq istəyinin dünyaya bəyan edilməsinin başlanğıcı oldu. 20 Yanvar qırğını həm də sovet rejiminin ermənilərlə birgə apardıqları anti-Azərbaycan siyasətinin tərkib hissəsi kimi qiymətləndirilməlidir. Qabaqcadan düşünülüb-hazırlanmış bu təcavüzkarlıq aksiyası Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq, ona mənəvi zərbə vurmaq məqsədi daşımışdır. Lakin Sovet imperiyası insanlıq adına sığmayan əməlləri ilə Azərbaycan xalqının iradəsini qıra bilmədi. 1990-cı il yanvarın 20-də xalqımız öz məğrurluğunu bir daha göstərdi. Soyuq yanvar gecəsi tanklar qarşısına əliyalın çıxan qəhrəman Azərbaycan övladları azad yaşamağın onlar üçün hər şeydən üstün olduğunu, müstəqillik yolundan bir daha dönməyəcəklərini dünyaya sübut etdilər. Adları yaddaşımızdan heç vaxt silinməyəcək şəhidlərimiz azadlıq yolunda canlarından keçməklə əbədiyyətə qovuşublar. Ona görə də bu gün, eyni zamanda xalqımızın mübarizlik, əyilməzlik və məğrurluq günü kimi fəxrlə anılır.

## Sədərək rayonu

***20 Yanvar faciəsinin 28-ci ildönümü Sədərək rayonunda da anılıb. Rayon sakinləri Sədərək kəndindəki Şəhidlər xiyabanını ziyarət edərək Vətən yolunda qurban getmiş insanların xatirəsinə ehtiramlarını bildiriblər.***



Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən iyirmi səkkiz il keçsə də, acı xatirələri ilə bu gün də yaddaşlarda yaşadılır. Keçmiş Sovet imperiyasının hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz tarixdə insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi qalacaqdır. Milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə qarşı silahlı təcavüz nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması, totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi.

Sovet ordusunun xüsusi təyinatlı bölmələrinin və daxili qoşunlarının Bakıya yeridilməsi görünməmiş qəddarlıq və vəhşiliklə müşayiət edildi. SSRİ 1956-cı ildə Çexoslovakiyaya, 1968-ci ildə Macarıstana və 1979-cu ildə Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni ozamankı müttəfiq respublikalardan biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi. Heç şübhəsiz ki, 1990-cı il yanvarın 20-də Bakıda baş verən hadisələri Qarabağdakı erməni təcavüzündən ayrıca təhlil etmək düzgün olmazdı. Çünki Azərbaycan həmin dövrdə qonşu Ermənistanın təcavüzünə də məruz qalmışdı. Belə bir şəraitdə sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görməmiş, əksinə Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan xüsusi təlim keçmiş erməni əsgər və zabitləri, eləcə də sovet hərbi hissələrində xidmət edən ermənilər, o cümlədən erməni kursantlar da daxil edilmişdi.

Ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlıq siyasəti və keçmiş SSRİ rəhbərliyinin onlara himayədarlığına qarşı öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı Sovet ordusunun hərtərəfli silahlanmış hərbi hissələrindən istifadə olunması 1990-cı ilin 20 yanvarında qanlı faciəyə gətirib çıxardı.

Ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları həmin gün canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Böyük itkilərlə, günahsız insanların qətlə yetirilməsi ilə nəticələnən bu faciə, eyni zamanda xalqımızın mübarizliyini, əyilməzliyini və məğrurluğunu bir daha nümayiş etdirdi.

Naxçıvan Muxtar Respublikasının "Alınmaz qalası" adlandırılan Sədərək də həmin dövrdə ağır günlərini yaşayırdı. 1989-cu ilin dekabr ayında muxtar respublikada SSRİ sərhədlərinin dirəklərinin sökülməsi Moskvanı bərk hiddətləndirmişdi. Qanlı Yanvar gecəsi Bakıya hücumdan 8 saat əvvəl ermənilər keçmiş sovet qoşunlarının köməyi ilə muxtar respublikaya hücuma keçdilər. Sədərək, Günnüt və Havuş kəndləri 1990-cı il yanvarın 19-da səhər, təxminən, saat 11-dən etibarən daha intensiv hücumlara məruz qaldı. Həmin vaxt ermənilər əsas qüvvələrini Sədərək istiqamətinə yönəltmiş və Kərki kəndini işğal etmişdilər. Sədərək intensiv top atəşinə tutulmuş, kənddə ilk şəhidlər verilmişdi.

Ermənilərin məhz yanvarın 19-da cidd-cəhdlə bütün istiqamətlərdə muxtar respublikaya hücum etməsi onu göstərirdi ki, onlar Bakıya qoşun yeridiləcəyindən və bununla da Naxçıvanın köməksiz qalacağından xəbərdar idilər. Bu, SSRİ rəhbərliyinin Azərbaycana qarşı çirkin planının tərkib hissəsi idi. Ümumilikdə, mənfur erməni yaraqlıları 1990-1993-cü illərdə Sədərəyə 14 dəfə hücum edib, 1990-cı ilin martında bu sərhəd bölgəsinə 300-ə yaxın top mərmisi atıblar. Bu qeyri-bərabər döyüşlərdə 500-ə yaxın ev, məktəb binaları, ictimai-inzibati binalar, sosial obyektlər dağıdılıb. Həmin ağır günlərdə sədərəklilərə muxtar respublikamızın hər yerindən, həmçinin ölkəmizin 14 rayonundan kömək gəlib, döyüşlərdə 109 nəfər şəhidlik zirvəsinə ucalıb. Sədərək bu bölgədə doğulub boya-başa çatan və şəhidlik zirvəsinə ucalan 52 vətənpərvərin yurd yeridir. Onların xatirəsi Sədərəkdə daim uca tutulur.

Yanvarın 20-də saat $12^{00}$-də muxtar respublikamızın bütün bölgələrində olduğu kimi, Sədərək rayonunda da doğma yurdumuzun, xalqımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Nəqliyyatın hərəkəti dayandırılıb, avtomobillərdən səs siqnalları verilib.

**Xəbərlər şöbəsi**



## Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib



Şərəfli tariximizin qan yaddaşına yazılan 1990-cı ilin 20 Yanvar faciəsindən 28 il ötür. Bu faciə Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan Vətən oğulları xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar, bugünkü müstəqil Azərbaycan dövlətinin tarixinə həmin faciəni xalqımızın şərəf və qəhrəmanlıq səhifəsi kimi yazdılar.

O gün Vətən yolunda öz canlarından keçən, şəhidlik kimi uca bir zirvəni fəth edən, ölümsüzlüyə yüksələn Azərbaycanın oğul və qızlarının məzarları bu gün müqəddəs ünvanlar kimi xalqımızın ziyarət yerlərinə çevrilib.

28 ildir ki, şəhidlərimizin ruhuna hörmət əlaməti olaraq məzarları ziyarət edilir, onların keçdikləri şərəfli ömür yolunun yeniyetmə və gənclərimizə örnək olmasını bir daha xatırlatmaq üçün məqsədyönlü tədbirlər həyata keçirilir.

Hər il olduğu kimi, bu il də yanvarın 20-də saat $12^{00}$-da Azərbaycanın bütün ərazilərində, o cümlədən Naxçıvan Muxtar Respublikasında da doğma yurdunun, xalqının azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, nəqliyyatın və piyadaların hərəkəti 1 dəqiqəlik dayandırılıb, avtomobillərdən səs siqnalları verilib. Həmin vaxt xətdə olan sərnişin qatarlarının da hərəkəti dayandırılaraq səs siqnalları verilib.

**Xəbərlər şöbəsi**

## Qəhrəmanlıq tariximizin saxlanc yeri: Xatirə Muzeyi



*Hər il 20 Yanvar faciəsi ərəfəsində naxçıvanlıların daha çox üz tutduğu ünvanlardan biri də Naxçıvan şəhərində fəaliyyət göstərən Xatirə Muzeyidir.*

Məlumat üçün bildirək ki, 1997-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Sərəncamı ilə yaradılan, 500 eksponatla fəaliyyətə başlayan Şəhidlər Muzeyinin adı 8 avqust 2000-ci il tarixdə dəyişdirilərək "Xatirə Muzeyi" adlandırılıb. Hazırda burada 2000-ə yaxın eksponat var. Hər bir eksponat bizi keçmişə qaytarır. Ötən əsrin əvvəllərindən xalqımıza qarşı törədilən qanlı cinayətləri xatırladır. Bu hadisələri unutmamağı təlqin edir. Eksponatlardan 400-ə yaxını ekspozisiyada sərgilənir. Muzeyin ekspozisiyasının qurulmasında xronoloji ardıcıllıq əsas götülürüb. Bir-birinin davamı olan 1918-ci il 31 mart, 1990-cı il 20 Yanvar, 1992-ci il 26 fevral faciələri ilə bağlı ulu öndər Heydər Əliyevin imzaladığı sərəncamların surətləri qiymətli sənədlər kimi muzeydə özünə yer alıb. Bu sənədlər görkəmli dövlət xadiminin xalqımızın şərəfli tarixinə böyük ehtiramının ifadəsi kimi diqqəti çəkir.





Budur, ekspozisiyanın illəri əhatə edən guşəsi. Həyəcansız baxmaq olmur. Burada 1918-1920-ci illərdə erməni daşnakları tərəfindən Azərbaycan xalqının başına gətirilən faciələri əks etdirən material, fotoşəkil və sənədləri görmək olar. Həmin illərdə erməni qəsbkarları hücum edərək yaşayış məntəqələrimizi soyur, talayır, əhalini isə xüsusi amansızlıqla öldürürdülər. Ermənilər o dövrdə təkcə Bakı şəhərində 70 min insanı qətlə yetirmişdilər. Andranikin başçılıq etdiyi erməni quldur dəstələri Naxçıvana da hücum etmişdilər. Yaycı kəndi tamamilə yandırılmış, əhaliyə insanlığa sığmayan şəkildə divan tutulmuşdu. Ümumilikdə isə Naxçıvanda 73 min 727 nəfər qətlə yetirilmişdi.

Digər bir guşədə Türk ordusunun 1918-1920-ci illərdə Naxçıvanda ermənilərə qarşı döyüşməsi ilə bağlı yer alan məlumatlar öz zənginliyi ilə diqqəti cəlb edir. Bu eksponatlar bizim bir millət, iki dövlət olduğumuzun əyani sübutudur və torpaqlarımıza göz dikənlərə qarşı ən böyük cavabdır.

Muzeyin digər guşələrindən birində Şərqdə ilk demokratik respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin tarixini əks etdirən nümunələr var. Bu doğma torpağın parçalanmasının şahidi olan Türkmənçay, Gülüstan müqavilələrinin surətləri də muzeydə yer alıb. Doğma diyarımız Naxçıvanın taleyini həll edən 1921-ci il 16 mart tarixli Moskva, 1921-ci il 13 oktyabr tarixli Qars müqavilələrinin də surətləri muzeyin ekspozisiyasındadır.

Başqa bir guşədə Birinci və İkinci Dünya müharibələrində xalqımızın şücaətini özündə əks etdirən materiallar toplanılıb. İkinci Dünya müharibəsi illərində azərbaycanlılar hünər və qəhrəmanlıqlar göstəriblər. Bu müharibədə 700 mindən artıq azərbaycanlı qəhrəmanlıqla döyüşüb. 300 min soydaşımız həlak olub, 2000 döyüşçü medal və ordenlərlə təltif edilib. 130 azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Onlardan üçü Naxçıvan torpağının yetirməsidir. Muzeydə Qəzənfər Əkbərov, Abbas Quliyev və Nəcəfqulu Rəfiyevin öz doğma Vətənindən minlərlə kilometr uzaqda göstərdikləri igidlikləri özündə əks etdirən sənədlər, fotoşəkillər və digər materiallar var.

1948-1953-cü illərdə erməni daşnaklarının xalqımızın başına gətirdiyi müsibət tarixin təkrarı idi. O illərdə erməni qəsbkarlarının Azərbaycanın kəndlərində, rayonlarında törətdiyi qırğınların sayı-hesabı yox idi.

Ötən əsrin 90-cı illərinin əvvəllərində bu tarix yenidən təkrar olundu. Erməni daşnakları özlərinin mənfur arzularını bu dəfə də həyata keçirməyə çalışdılar. 1990-cı ilin yanvar ayında Sədərəyə hücuma keçdilər. Bu sərhəd bölgəsinə yüzlərlə azərbaycanlı yollandı. Bununla bağlı olan guşədə diqqəti çəkən bir fotoşəkil həm təsirləndirici, həm də qürurlandırıcıdır. Bu, Sədərəkdə könüllülərdən ibarət özünümüdafiə dəstəsinin fotoşəklidir. Həmin könüllülər torpaqlarımızın bütövlüyü uğrunda döyüş meydanına atılan igidlər idi.

Sədərəkdə qanlı döyüşlər gedən müddətdə hamımızın "Qızıl ordu" kimi tanıdığımız ordunun cəlladları Bakıya hücum etdilər. İnsanlar onların qabağına əliyalın çıxdılar. Bakı qan dənizinə çevrildi. Lakin cəlladlar xalqımızın azadlıq arzusunu boğa bilmədilər. Gördülər ki, bu xalq öz tarixi keçmişinin varisidir. Hər bir qarış torpaq uğrunda canından keçməyə hazırdır.

Həmin vaxtdan başlayan elan olunmamış müharibə hələ də davam edir. Torpağımız uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalanlar xalqımızın övladlarıdır. Onların hər birinin keçdiyi yol bugünkü gənclik üçün bir örnəkdir. Çünki o yol ərazi bütövlüyümüzün və müstəqilliyimizin daha da möhkəmləndirilməsi uğrunda qət edilən yoldur. Bu yolda şəhidlik zirvəsinə ucalmaq müqəddəsliyə qovuşmaqdır. Xalqımız bu qəhrəman övladlarını unutmur, unutmayacaq da.

Bu döyüşlərdə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülən 213 döyüşçüdən 8-i naxçıvanlıdır. Muzeydə həmin qəhrəmanlar haqqında ətraflı məlumat almaq olar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixdə imzaladığı "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncama əsasən muxtar respublikanın bütün idarə, müəssisə və təşkilatlarının kollektivləri muzeylərdə olurlar. Bəhs etdiyimiz Xatirə Muzeyində də şanlı tariximizin saxlanc yeri kimi buraya gələnlərə bu qəhrəman Vətən övladları haqqında ətraflı məlumat verilir.

Bu gün Xatirə Muzeyində açıq dərslərin keçilməsi diqqət mərkəzində saxlanılır. Yanvarın 18-də muxtar respublikanın ümumtəhsil məktəbləri arasında yaradılan interaktiv əlaqədə məktəblilərə qəhrəmanlıq və qürur tariximiz olan 20 Yanvar faciəsi haqqında məlumat verilib. Vurğulanıb ki, 20 Yanvar faciəsi ərəfəsində Naxçıvan Muxtar Respublikasının sərhəd kəndləri də erməni silahlılarının işğalçı hücumlarına məruz qalıb. Hazırda muzeydə Bakıda və Naxçıvanda baş verən həmin hadisələri əks etdirən çoxsaylı eksponatlar vardır. Bununla yanaşı, bir sıra məqsədyönlü tədbirlər də həyata keçirilir, şagird və tələbələrin muzeyə ziyarəti təşkil edilir. Məqsəd isə ondan ibarətdir ki, bugünkü gənclik şərəfli tariximizə dərindən bələd olsun, bu tarixlə qürur duysun, Vətənə, dövlətə, müstəqilliyimizə sadiq ruhda böyüsün.

✍ **Fatma BABAYEVA**

*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda 20 Yanvar faciəsinə həsr olunmuş "İki qərənfil" adlı rəsm sərgisi açılıb.*

## 20 Yanvar faciəsinə həsr olunan sərgi açılıb



Sərgidə Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək faciənin başvermə səbəblərindən danışıb. Bildirib ki, XX yüzillik Azərbaycan xalqının taleyinə, tarixinə ən qanlı hadisələrlə, faciələrlə, misligörünməmiş soyqırımlarla yanaşı, müstəqillik və azadlıq uğrunda mübarizə, hünər və qəhrəmanlıq, milli oyanış və özünüdərk əsri kimi də daxil olub. Bu baxımdan 1990-cı ilin 20 yanvar günü xalqımızın milli azadlıq mübarizəsində xüsusi yerə malikdir. Bu tarix uzun illər Sovet imperiyasının əsarətində yaşayan xalqımız azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir.

Vurğulanıb ki, Azərbaycan xalqı o günlərdə böyük bir həqiqəti bir daha dərk etdi: onun arxası, dayağı yalnız ulu öndərimiz Heydər Əliyevdir. Həmin faciəyə ilk siyasi-hüquqi qiyməti də məhz xalqımızın ümummilli lideri verdi.

Ülviyyə Həmzəyeva bildirib ki, muxtar respublikada fəaliyyət göstərən rəssamlar şəhidlərimizə diqqət və ehtiram əlaməti olaraq bu mövzuya tez-tez müraciət edir, silsilə əsərlər yaradırlar. Bugünkü sərgidə 20 Yanvar hadisələri rənglərin dili ilə sənətsevərlərimizə təqdim edilir.

Sərgidə Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamları Əli Səfərov və Məhəmmədəli Ələkbərov, Bəhruz Kəngərli Muzeyinin direktoru Səbinə Əlincəli, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin direktoru Namiq Novruzov çıxış ediblər.

Sonra sərgiyə baxış olub. "İki qərənfil", "20 Yanvar şəhidləri", "Qərənfillər", "Unutmaq olmaz", "Şahidlər", "Erməni faşizmi" və digər əsərlər iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Bir həftə davam edəcək sərgidə muxtar respublikada fəaliyyət göstərən 30 rəssamın 62 əsəri nümayiş etdirilir.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 71